

# ...DƏ YAŞASA DA...

*Azərbaycanlılar!*
*Harada olursan ol, hansı ölkədə yaşayırsan-yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən!*

**Heydər ƏLİYEV**

O 17 ildir ki, Odlar Yurdu günəşli Azərbaycandan çox-çox uzaqlarda qarlı-buzlu, şaxtalı sazaqlı Sibir torpağında – Rusiya Federasiyasının Tümen vilayətinin Xantı Mansiysk Muxtar Mahalının Megion şəhərində yaşayır. Azərbaycan diasporunun formalaşmasında, Azərbaycanla – Rusiya mədəni əlaqələrinin inkişafı yollarında xeyirxah və səmərəli işlər görür.

Aslan Kazımovu Xantı Mansiysk Muxtar Mahalında – Tümen, Surqut, Megion, Lanqepas, Koqalım, Nijnevartovsk, Nefteyuqansk və digər şəhərlərdə çox yaxşı tanıyırlar. Sadə, mehriban, xoşxasiyyətli, ürəyi təmiz, səxavətli bir insandır. Orada yaşayan soydaşlarımızın hər birinə çətinə, dara düşəndə kömək əli uzadır, onlara dəstək olur.

A.Kazımov lap gəncliyindən - 20 yaşından uzaq Sibir torpağında yaşayıb fəaliyyət göstərir. Aslan Sibirin tayqa meşələrini, qarla örtülü çöllərini qarış-qarış gəzmiş, vətəndən uzaqda Yenisey, Lena, Ob çaylarının sahillərində xəyallara dalmışdır. Sibirin sərt iqlimi, şaxtası, soyuğu, qılınc kimi kəsən küləkləri onu mətinləşdirmiş, dözümlü və dəyanətli etmişdir.

Aslan klassik muğamlarımızı, musiqimizi, mədəniyyətimizi, incəsənətimizi və milli adət-ənənələrimizi ürəkdən sevir. O vaxtilə özü ilə oraya milli musiqi alətləri aparmış, azərbaycanlılardan ibarət ansambl təşkil etmişdir. Oradakı toylarımız, şənliklərimiz, milli bayramlarımız öz doğma musiqimizin sədaları ilə qeyd olunur. Uzaq Sibir torpağında «Vağzalı», «Tərəkəmə», «Heyratı», «Azərbaycan təranələri», «Qarabağ şikəstəsi» səsləndirilir. A.Kazımov həmişə soydaşlarımızla xeyirdə-şərdə bir yerdə olur. Xalqımızı, millətimizi qürbət eldə ləyaqətlə, qeyrətlə təmsil edir. Onun sinəsində Azərbaycana qarşı sevgi, məhəbbət dolu bir ürək döyünür.

Aslan qardaşımız qürbətdə yaşasa da, öz elini-obasını unutmur. Odlar yurdu Azərbaycanı, onun dilbər guşəsi, şairlər vətəni Qazağı, sazlı-sözlü İncə dərəsini, doğma ata yurdu – Qaymaqlı kəndini yaddan çıxarmır. Tez-tez doğma vətəninə gəlir, onun hər gəlişi sanki toy-bayram olur. Aslan həm də xeyriyyəçidir. Kasıb-kusubu, imkansızı sevindirir. Əlindən yalnız savab işlər gəlir. O elinə-obasına qəlbən bağlı, əsl vətənpərvər, əsl vətəndaşdır.

Aslan eyni zamanda nümunəvi ailə başçısıdır. Həyat yoldaşı Məntuqə xanımla bir cüt övlad böyüdürlər. Qızı Günəş, oğlu Anar məktəblidir. Hər ikisi də dərs əlaçısıdır.

Aslan qürbət eldə tək deyildir. Qardaşı Araz və həyat yoldaşı Şəfiqə, qardaşı uşaqları Zöhrab, Aqil, Aqif, əmisi oğlu Rasim və həyat yoldaşı Əntiqə, yaxın qohumu Fəxrəddin bir-birinə arxa, dayaq və həyandırlar.

Aslan elini-obasını sevdiyi kimi, onun füsunkar təbiətini də sevir. Qürbətdən vətənə gələndə təbiətin qoynunda təşkil etdiyi məclislər həmişə toylu-büsatlı, çallı-çağırlı, musiqilinəğməli olur. O bütün keçirdiyi tədbirləri videokassetlər və fotoşəkillər vasitəsilə əbədiləşdirir. Aslan təbiət mənzərələrini, tarix və mədəniyyət abidələrimizi, musiqimizi videokassetlərə, disklərə, fotolara köçürməklə, gedəndə özü ilə uzaq Sibir torpağına aparıb orada nümayiş etdirir. O əsl təəssübkeş kimi Azərbaycan mədəniyyətinin və turizminin inkişafı və təbliği yolunda təqdirəlayiq xeyirxah işlər görür.

Aslan Sibir torpağından Azərbaycana gələndə doğma vətəndə Qarayazı meşəsini gəzib-dolaşır, Kür qırağını, Avey dağını seyr edir, Göyəzən dağına tamaşa edir, Damcılı bulağının, Bayram bulağının suyundan içir, Hacı Mahmud Əfəndinin göy Türbəsini ziyarət edir, Səməd Vurğun Poeziya evinin qonağı olur. Qazaxdakı «Mütəfəkkirlər bağı»nı, Heydər parkını gəzir, Dövlət Rəsm Qalereyasına, Tarix Diyarşünaslıq muzeyinə baş çəkir, o bundan mənəvi zövq alır.

Ürəyində özü boyda vətən sevgisi gəzdirən Aslan Kazımov son vaxtlar doğma Qazax mahalında görülən abadlıq, təmir-tikinti, mədəni quruculuq işlərini görüb çox sevinir.

Sibirli qardaşımız Aslan Kazımov cənab prezident İlham Əliyevin Azərbaycan naminə gördüyü işləri ürəkdən alqışlayır. Azərbaycanın son illərdə dünyada tanınmasından, onun dinamik inkişafından, Dağlıq Qarabağ müharibəsində ədalətli mövqeyindən, xalqımızın haqq işinin qələbə çalacağını və bu kimi real həqiqətlərin dünya xalqlarına çatdırılması yolunda əhəmiyyətli işlər görür.

Bəli, eloğlumuz Aslan Kazımov vətəndən uzaqda – Sibirdə yaşasa da həmişə doğma Azərbaycanla sıx əlaqə saxlayır.

**Kazım KAZIMLI**